# Müdafiə tikililəri haqqında orta əsr səyyahlarının məlumatları

Məhz buna görə də o orta əsr səyyahlarının, diplomatlarının diqqət mərkəzində olmuşdur. Buraya gələn hər bir xarici qonaq sənət və peşəsindən asılı olmayaraq bu qədim şəhərin abidələri, insanları, mədəniyyəti, təsərrüfat həyatı və məişəti ilə maraqlanmış, onlar barəsində qiymətli məlumatlar toplamışlar ki, bu məlumatlar da bu gün bizim tariximizin qaranlıq səhifələrinin işıqlandırılması baxımından çox qiymətli mənbələrdir. Şamaxının orta əsr müdafiə istehkamlarının öyrənilməsi və tədqiq edilməsində bu məlumatlardan geniş və səmərəli istifadə olunur. (3,216)

Türk səyyahı Övliya Çələbi 1647-ci ildə Şamaxıya gəlir. O, Şamaxıda ağ daşdan tikilmiş 44 karvansara, 40 məktəb, 700-dən artıq fərdi ev olduğunu yazır (yenə orada).

Alman səyyahı və alimi A.Oliari 1636-cı ilin dekabrında Şamaxıya gəlir və 1637-ci ilin mart ayının 27-nə kimi Şamaxıda olur. O Şamaxı qala divarları barədə çox qiymətli məlumatlar verir. Səyyah yazırdı: "Şəhər divarlarında mən daş üzərində yonulmuş iki kişi başı gördüm, heç kəs bunların nə demək olduğunu mənə aydınlaşdıra bilmədi". O daha sonra yazırdı; "Şamaxı dağda yerləşir və ona görə də şəhərə çatmayınca onu görməyirsən" (6,109) O, daha sonra yazırdı: "Əvvəllər o çox böyük idi və burada beş min ev vardı. Sonralar şah Abbasın hücumları nəticəsində azaldı. O iki hissədən ibarətdir və hər iki hissəsi qala divarları ilə əhatə olunub. Şah Abbas gördü ki, türklər əsasən qalanın möhkəmləndirilmiş və yaxşı müdafiə olunmuş yerinə hücum edir və oranı ələ keçirmək istəyirlər. O, qala divarlarının cənub hissəsini sökdürdü və indi də ora açıq yer kimi qalmaqdadır" (6, s.269).

*Orta əsrlər olduqca maraqlı, zəngin materiallarla səciyyəvidir. Göstərilən dövrdə və ondan sonra da Azərbaycana diqqət və maraq güclənmişdir. Bunun da nəticəsində Azərbaycana həm qəsbkarlıq, həm ticarət, həm də səyahət məqsədi ilə çoxlu xarici vətəndaşlar gəlmişdir. Onların o dövrdəki Azərbaycan haqqında yazdıqları bizim üçün çox qiymətlidir. Şərqin ən qədim mədəniyyət mərkəzlərindən olan və tarixi eramızın ilk əsrlərinə və ondan da əvvələ gedib çıxan Şamaxı şəhəri inkişaf etmiş orta əsrlərdə (IX-XV) sənət, ticarət və mədəniyyət mərkəzi kimi öz inkişafının ən yüksək zirvəsinə çatmışdır.*

XV əsr coğrafiyaşünas səyyahı ibn Aras Bakı haqqında məlumat verirdi. O yazırdı: "Burada daşdan tikilmiş iki istehkam vardir, dəniz onlara yaxınlaşmış və onlardan birini tatarlar şəhəri alarkən dağıtmışlar" (4, s.4).

Moskvalı tacir F.Kotov 1623-cü ilin avqustunda Şamaxıda olmuşdur. O, Şamaxı şəhərinin qala divarları haqqında yazırdı: "Şamaxı iki hündür dağ arasında yerləşir. Daşla hörülmüş hasarı var. Böyük və hündür şəhər deyil. Şəhərin ətrafı xəndəkdir. Qapılarına dəmir vurulmuşdur. Adamları və karvansaralar şəhərin çölündədir. Şamaxıda 7 karvansara var və hamısı daşdandır və hamısına da su gəlir" (6, s.225).

Daha bir səyyah, rus alimi və ictimai xadimi A.P.Volınski 1715-ci ildə Şamaxıda olmuşdur. O, şəhər barədə yazırdı: "Şamaxı Gülüstan dağının ətəyindədir. Şəhərin o biri tərəfindən Kalaxanı adlı çay axır. Şəhərin uzunluğu 2 verst, eni isə 1 verstdir. Tikintilərinin çox hissəsi yonulmuş daşdandır. Şəhərin ortasında o qədər də qədim olmayan qala vardır. Onun bəzi bürcləri və divarı dağıdılmışdır" (5, s.380-381).

Orta əsr səyyahlarından ingilis A. Cenkinson Şamaxını "gözəl kral şəhəri" kimi qiymətləndirir (2, s.226). Bu məlumatdan görünür ki, o dövrdə Şamaxı şəhəri Gülüstan qalasına yaxın yerləşirmiş. Bunu Adam Oliarinin çəkdiyi qrafik rəsmdən də aydın görmək olar.

XV əsrdə Şamaxıya gələn Avropalı səyyah İspan Ambarizo Kontarini onu (Şamaxını) Təbrizdən böyük olmasa da ondan irəli gedən bir şəhər kimi qeyd edir (6, s.91).

Səyyah Şamaxıya gəlişini belə təsvir edirdi: "Yola düşmək üçün mənə və mənim adamlarım üçün 45 dəvə və at hazırladılar. Mən 12 avqustda oradan (Dərbənddən) yola duşdüm və elə həmin ayın 18-də Girkaniya, indi isə Şirvan adlanan ölkənin Şamaxı şəhərinə çatdım. Bu gözəl şəhərdə mənə şah və mallarıma xüsusi otaq ayırdı və mallarım boşaldıldı. Növbəti gün ayın 19-da mən şahdan onun yanına gəlmək barədə dəvət aldım. Onun adı Abdulla xan idi. Onun sarayı Şamaxının 20 verstliyində yüksək bir dağda idi" (6, s.109).

Bu dövrdə şəhərin iki hissədən ibarət olması və hər iki hissənin di-

varla əhatə olunması barədə A.Oliarinin verdiyi məlumat çox diqqətəlayiqdir. Bu dövrdə adətən orta əsr Azərbaycan şəhərləri 3 hissədən ibarət idi. Onlar Narınqaladan, Şəhristandan və Rabaddan ibarət olurdu. Narınqala şəhərin ən əhəmiyyətli yerində yerləşirdi. Buradan bütün şəhərə nəzarət olunurdu və eyni zamanda hökmdarlar burada yaşayırdılır.Şəhristan narınqalanın ətrafında yerləşirdi. Orada ictimai binalar, dükanlar, sənətkarlıq istehsalı obyektləri və bazar yerləşirdi. Narınqala kimi şəhərin bu hissəsi də qala divarları ilə əhatə olunurdu. Bəzən divarların həndəvərində daha bir müdafiə qurğusu olan xəndək qazılırdı. Bunlardan kənarda isə rabad, yəni bayır şəhər yerləşirdi. Burada şəhər sənətkarları, əkinçilər, aşağı təbəqənin nümayəndələri və yoxsullar yaşayırdılar. Xarici təhlükə zamanı ilk zərbə məhz bunlara dəyirdi. Düşmənə qarşı ilk müqavimət göstərənlər də bunlar olurdu.

Səyyah A.Oliari yazırdı: "Şimal hissə bir qədər kiçikdir. O təpədə yerləşir və əhatəsi o qədər böyükdür ki, lap Leypsiqə oxşayır. O çox pis divarla əhatə olunmuşdur. Belə ki, hətta qapılar belə bağlı olanda divarın deşiklərindən müxtəlif istiqamətlərdən şəhərə girmək olardı. Şəhərin 5 qapısı var idi (6, s.270).

Başqa bir mənbədən aydın olur ki, Şirvanşahlar sarayının bəzi əsas hissələri 1616-cı ildə hələ yaxşı vəziyyətdə idi. "1125-ci ildə (hicri) Şah Abbas Şamaxı qalasının yanında əmr etdi ki, Qurban bayramı mərasimi ilə əlaqədar şah divanxanası yaxınlığında taxtadan böyük bir eyvan düzəltsinlər və dövlət əyanlarına orada qulluq etsinlər" (6, s.34). Bu dövrlərdə "Bala Qala" (Narınqala - Ə.C.) hələ XVII əsrin əvvəllərində yaxşı vəziyyətdə idi. O vaxt Şamaxıya gələn Ö.Çələbi yazırdı: "Hələ iç qalası möhtəşəm və məmurdur. Lakin aşağı qalası cəbasa rəknədar olmuşdur" (1).

Avropalı səyyah Hollandiyalı Yan Streys yazırdı: "Ayın 8-də biz məşhur İran ticarət şəhəri olan Şamaxıya daxil olduq. O 40*50* en dairəsində yerləşir. O Şirvan və yaxud Midiya vadisindədir. Bu vadi dağlarda yerləşir, onu yaxınlaşmamış görmək olmur. Əvvəllər şəhər lap böyük olub, lakin I şah Abbasın müharibələrindən sonra xeyli kiçilmişdir. Şah şəhərin yaxşı müdafiə olunan cənub divarlarını uçurmaq əmri verir. Divarın o biri tərəfinə isə dəymir, çünki o tərəfdə şəhər onsuz da müdafiə oluna bilmirdi. Divarlardakı deşiklər o qədər böyük idi ki, şəhərə qapılar bağlı olanda belə gündüz və gecə də girmək olardı. Həm cənub, həm də şimal tərəfin küçələri çox ensiz idi. Evlər isə çox alçaq idi, gildən və taxtadan yerdən tikilmişdir. Cənub tərəfdə bazar və iki böyük saray da var idi ki, bura xarici tacirlər gəlirdi. Bunlardan biri şah karvansarası adlanırdı ki,burada da Dağıstan və başqa yerlərdən gələn tatarlar at, insan alveri edirdilər" (6, s.310). (Burada müəllif insan alveri dedikdə çox güman ki, digər ölkələrdən buraya gətirilən işçi qüvvəsini nəzərdə tuturmuş). Şamaxının yaşlı sakinlərinin müəllifə dediyinə görə bu bazar son vaxtlara qədər Şeytanbazar adı ilə qalmaqda idi.

Şamaxı şəhəri və ətrafında olan müdafiə istehkamları haqqında olan orta əsr səyyahlarının və digər mənbələrin verdiyi son dərəcə qiymətli məlumatlara əsasən orta əsr Şamaxı şəhərinin müdafiə qurğuları haqqında ətraflı təsəvvür yaranır və onların bu məlumatları əsasında şəhərin tarixinin də tədqiq olunması qismən asanlaşır. Bu məlumatlar əsasında qalaların, şəhər divarlarının yeri və forması barədə ətraflı məlumat əldə edərək tariximizin bu dövrünü öyrənmək daha da asanlaşır.

1667-ci ildəki şiddətli zəlzələdən sonra şəhərə ciddi zərbə dəymişdir. XVII əsrin 80-ci illərində Şamaxıya gələn Avrill Flipp yazırdı: "Ən məşhur və çox əhalisi olan şəhərlərdən biri hələ bir neçə il əvvəl çiçəklənmə vəziyyətində olan Şamaxı 12 il bundan qabaqki şiddətli zəlzələ nəticəsində xərabəyə çevrilmişdir. Şəhərdə olan 6 min evdən 5 mini dağılmışdır. Buna baxmayaraq şəhərdə hələ də 50-60 min əhali yaşayır" (1, 1973, №1)

Şirvanşahlar dövlətinin süqutundan 150 il keçməsinə baxmayaraq Şamaxı yenə də öz əzəmətini saxlamışdır. Məhz bu dövrdə Şamaxıda şəhər tikintisində əvvəlki illərə nisbətən əsaslı dəyişikliklər baş verir. Belə ki, XV əsrdə Şamaxı Şirvanşahların əzəmətli paytaxtı olduğu halda Səfəvilərin Şirvanşahları işğal edib özlərinə tabe etdikdən sonra şəhər əvvəlki sərbəstliyini və müstəqilliyini nisbətən itirir. Çünki bu dövrdən etibarən Şamaxı Səfəvi-Osmanlı qoşunlarının döyüş zonasına və meydanına çevrilmişdir. Onlardan müdafiə üçün təbii ki, şəhərin müdafiə istehkamlarının yenidən qurulması tələb olunurdu. (1.1973,№1)

Bütün bu deyilənlərdən sonra belə bir nəticəyə gəlmək olar ki, orta əsr Şamaxısının həm özünün, həm də müdafiə qurğularının öyrənilməsində orta əsr səyyahlarının məlumatları çox qiymətli və əvəzsiz ilkin mənbələrdir.

**Ə.CÜMŞÜDLÜ,**
**A.MƏMMƏDOV**

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan SSR EA Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq seriyası. B.Azərbaycan SSR EA Nəşriyyatı. 1963, №3; 1971, №1; 1972, №1, 2; 1973, -№1; 1974, №3; 1976, №2,3; 1977, №2; 1978, №1, 2; 1984, №3.
2. Qiyasi S. Nizami dövrünün memarlıq abidələri. Bakı.İşıq nəşriyyatı 1991.
3. Məmmədov A.M. Nizami əsrinin gülüstan qalası. B.Elm. 1989.
4. Nuriyev A.B, Babayev Ə. Bərdə şəhərinin tarixi arxeoloji oçerki. Bakı,Elm nəşriyyatı.2001.
5. Şçeblıkin J.P. Bakıda Şirvanşahlar sarayı., Bakı. EA nəşriyyatı 1939.
6. Керимов В.И. Оборонительное сооружение Азербайджана эпохи Низами. Б.Издательство Элм 1991.